# Ümumtəhsil məktəblərində dünya ədəbiyyatının tədrisinin əhəmiyyəti

Müəllif **Arif Əsədov**
Filologiya üzrə fəlsəfə doktoru, ARTİ-nin elmlər doktoru proqramı üzrə doktorantı, Azərbaycan, Bakı. E.mail: arif_alim@mail.ru
https://orcid.org/0000-0002-1382-7870

Annotasiya Məqalə Azərbaycanda orta ümumtəhsil məktəblərində ədəbiyyat dərslərində dünya ədəbiyyatı nümunələrinin tədrisi məsələlərinə həsr olunmuşdur. Tədris prosesində şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün formalaşmasında dünya ədəbiyyatından seçilmiş nümunələrin öyrədilməsi, idraki və ünsiyyət bacarıqlarının formalaşdırılmasında həmin nümunələrin tədris edilməsinin rolu və əhəmiyyəti diqqətə çatdırılmışdır. Qeyd edilmişdir ki, fənn kurikulumlarının mahiyyətində şagirdlərdə milli və bəşəri ideyaların formalaşdırılması, onların şəxsiyyətinin inkişaf etdirilməsi məsələləri geniş şəkildə əks olunub. Eyni zamanda, dövlət tələbi – məzmun xətləri və standartların tələblərinin düzgün və dəqiq reallaşdırılması məhz dünya ədəbiyyatı nümunələrinin tədrisi ilə mümkün ola bilər.

Açar sözlər Dünya ədəbiyyatı, xarici ədəbiyyat, müqayisəli tədris, ədəbiyyatın tədrisi metodikası.

DOI: http://dx.doi.org/10.29228/edu.36

**Məqaləyə istinad:**
Əsədov A. (2019) *Ümumtəhsil məktəblərində dünya ədəbiyyatının tədrisinin əhəmiyyəti.* «Azərbaycan məktəbi». № 3 (688), səh. 133–140.

**Məqalə tarixçəsi:** Göndərilib — 16.08.2019; Qəbul edilib — 21.09.2019

# The Importance of Teaching World Literature in Comprehensive Schools

Author **Arif Asadov**
Doctor of Philosophy in Philology, PhD in Azerbaijan Republic Education Institute, Baku, Azerbaijan. E.mail: arif_alim@mail.ru
https://orcid.org/0000-0002-1382-7870

Abstract The article is devoted to teaching the world literature examples in Azerbaijani comprehensive schools. It was emphasized the importance of taking benefit of the world literature for the purpose of formation logical, critical and creative reasoning of students in the teaching process, and also the formation of cognitive and communicative skills. It was indicated that in the core of curriculum subjects widely reflected the formation of students' national and global analytic skills and their personal development. At the same time the state demand – proper and accurate implementation of the content lines and standards can be achieved through the training of examples of world literature.

Keywords World literature, foreign literature, comparative teaching, literature teaching methodology.

DOI: http://dx.doi.org/10.29228/edu.36

**To cite this article:** Asadov A. (2019) *The Importance of Teaching World Literature in Comprehensive Schools.* Azerbaijan Journal of Educational Studies. Vol. 688, Issue III, pp. 133–140.

**Article history:** Received — 16.08.2019; Accepted — 21.09.2019

Ədəbiyyat şagird şəxsiyyətinin, dünyagörüşünün, zövqünün, ünsiyyət və idraki bacarıqlarının formalaşdırılması baxımından xüsusi əhəmiyyətə malik tədris fənnidir. İnsan kapitalının yaradılmasında, rəqabətədavamlı təhsil nəticəsi formalaşdırmaqda ədəbiyyatın tədrisinin rolu böyükdür. «Ədəbi əsərlərin öyrədilməsi zamanı şagirdlərin şifahi və yazılı nitqi tədricən cilalanır. Şagirdlər ana dilimizdə yazılmış əsərlərdə dilin gözəlliyini, dərin fikir və ifadə zənginliyini görüb-götürür. Təlim prosesində sənətkarın sözdən istifadə məharəti, nitqin bədiiliyi, ifadəliliyi, obrazlı sözün doğurduğu emosionallıq və fikir tutumu haqqında aydın təsəvvür yaradılır, bu əsasda şagirdlərin özünün nitqinin zənginləşməsi təmin edilir» [Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Ədəbiyyat fənni üzrə təhsil proqramı [kurikulumu] [V-XI siniflər] s. 7].

Xalqların minilliklər ərzində formalaşmış və onların davranışlarına, etno-dini davranış və intellektlərinə hopmuş, onları hərəkətə gətirən mədəni nailiyyətlərini Azərbaycan yeniyetməsi o dərəcədə mənimsəməli və özününküləşdirməlidir ki, dəyişməkdə olan dünyanın mədəni qazanclarını, genezisini şüurlu surətdə tuta bilsin, dünya xalqlarının mədəni, intellektual hərəkət xəritəsini müəyyənləşdirsin. Müşahidələr onu göstərir ki, iqtisadi-sosial-siyasi-texnoloji yeniliklərin əsasında həmin xalqın ədəbiyyatı dayanır. Bunlar özlüyündə ümumtəhsil məktəblərində ədəbiyyat fənninin məzmununun yenilənməsi, yeni mahiyyət və çalar qazanmasını zərurətə çevirir.

Şagirdlərin bilik və bacarıqlarının formalaşmasında lazımi fənn materiallarının seçilərək dərsliklərə daxil edilməsi, böyüyən nəslə qədərincə öyrədilməsi indiki mürəkkəb mədəni-ideoloji fikir mübarizələri çağında xüsusi əhəmiyyətə malikdir. Yaddaş məktəbindən təfəkkür məktəbinə, ənənəvi təhsil proqramlarından yeni fənn kurikulumlarına, yeni təlim üsul və formalarına keçidi zərurətə çevirmiş müasir ictimai şüur və sosial münasibətlər hər bir tədris fənninin yeni yol strategiyasını müəyyənləşdirmişdir.

Dünya ictimai fikri və texniki nailiyyətləri hazırda özünün ən yüksək mərhələsindədir və bu tendensiya artan xətlə davam etməkdədir. «Söhbət artıq insan varlığının fundamental əsaslandırılmasından, yeni dəyərlərin yaradılmasından gedir. Yeni dünyagörüşün ilkin əsasları texnogen sivilizasiyanın öz içində yaranır. Müasir dünyada tamamilə fərqli mədəni ənənələr bir-biri ilə toqquşur, qarşılaşır və dialoqa girir. Bəşəriyyət isə anlayır ki, bu dialoqu aparmağı öyrənmək lazımdır» [Найн А.Я. 1995, с.123].

Azərbaycanın müasir dünyada tutduğu mövqeyi yeni tendensiyalar müəyyənləşdirir, yeni çağırışları reallaşdırmağı qaçılmaz edir. «Azərbaycanın beynəlxalq əmək bölgüsünə inteqrasiyası, dünya ölkələri arasında əməkdaşlıq meyillərinin güclənməsi, iqtisadiyyatın dinamik inkişafı, yeni istehsal sahələrinin meydana gəlməsi cəmiyyətin hər bir sahəsində yüksək təhsil səviyyəsinə malik mütəxəssislərə tələbatı artırır. Bu isə öz növbəsində yüksək tələblərə cavab verən çevik təhsil siyasətinin həyata keçirilməsini zəruri edir» [Valehov C. 2015, s. 24].

Məktəbdə milli və bəşəri dəyərlərə əsaslanan təhsilin məzmunu xalqın gələcək inkişafını, təhsil-təlim keyfiyyətini, əhalinin rifahını təmin edəcək əsas

keyfiyyət amilinin yaradıcısıdır. Şagird şəxsiyyətinin, təfəkkürünün inkişafı ölkənin əmək bazarını, intellektual sferasını təmin edəcək, rəqabətədavamlı kadr hazırlığını müəyyən edəcək kriteriyalardır. «Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı, iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir» [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası].

Azərbaycan məktəbinin, pedaqoji fikir tarixinin inkişaf dinamikasına diqqətlə nəzər saldıqda dünyanın əsas yaradıcı şəxslərinin bədii əsərlərinin tədris materialı olaraq hər zaman əsas resurslardan biri kimi istifadə olunduğunu müşahidə edirik.

Dünya ədəbiyyatı nümunələrinin sistemli və müqayisəli tədrisi ədəbiyyat fənninin tədrisi səviyyəsini yüksəltməyə, standartları daha effektli reallaşdırmağa, şagird marağını təmin etməyə xidmət edir. Təsəvvür edək ki, qədim Şumer, qədim Misir, qədim yəhudi, qədim Çin, qədim Yunan və Roma ədəbiyyatı haqqında bəzi seçmə nümunələrin qədim dövr Azərbaycan ədəbiyyatının tədrisi zamanı müqayisəli şəkildə tədris olunması şagirdin idraki və ünsiyyət bacarıqlarının inkişaf etdirilməsində böyük rol oynaya bilər. Paralel olaraq «Ədəbiyyat» fənni ilə «Ümumi tarix» fənni arasında inteqrasiya yaratmaq, hər iki fənn üzrə səriştələr formalaşdırmaq baxımından bu məsələ xüsusi rol oynayar. Məsələn, qədim Misir ədəbiyyatında «Gəmi qəzasına uğramışın nağılı» var. Həmin nağıl nümunəsi vətəndən uzun müddət uzaqda yaşamış, vətəni həsrətlə gözləyən və sonra vətənə dönən bir qəhrəman haqqındadır. Həmin nümunənin məzmunu sanki oxucuya

*Əzizim, vətən yaxşı,*
*Geyməyə kətan yaxşı.*
*Gəzməyə qərib ölkə,*
*Ölməyə vətən yaxşı —*

bayatısını pıçıldayır.

Məsələyə digər prizmadan yanaşaq. Şagird eyni məzmunlu, müxtəlif predmetli fənlərdə məlumatları alaraq daha nizamlı və daha sistemli bilgilərə malik olur. Məsələn, VI sinif «Ümumi tarix» dərsliyində «Qədim Misirdə mədəniyyət», «Babil mədəniyyəti», «Assur mədəniyyəti», «Midiya mədəniyyəti», «Parfiya mədəniyyəti», «Qədim türk, Çin və Hindistan mədəniyyəti», «İskit mədəniyyəti», «Hun mədəniyyəti», «Yunan mədəniyyəti», «Roma mədəniyyəti» bölmələrində ədəbiyyat

haqqında məlumat verilir, hər bir xalqın ədəbiyyatının inkişafı və ümumi xüsusiyyətləri haqqında bu və ya digər məlumatlar qeyd edilir. Eyni hal yuxarı sinif «Ümumi tarix» dərsliklərinə də aiddir. Ədəbiyyatların paralel olaraq təhlil edilməsi, müqayisələr aparılması həm tarix fənni, həm də ədəbiyyat fənninin tədrisinin keyfiyyətinin artırılması, şagirdin idraki bacarıqlarının daha mütəşəkkil formalaşdırılması istiqamətində ciddi müsbət nəticələr verə bilər.

«Qədim misirlilərin şifahi xalq yaradıcılığında əfsanələr mühüm yer tutur. Əfsanələr qədim misirlilərin həyatı və məişətindən bəhs edir, tanrı və fironların qüdrətinin sarsılmaz olduğunu təbliğ edirdi.

Dünyanın yaranması haqqında Misir əfsanəsində Günəş tanrısı Ra dünyanın yaradıcısı hesab edilirdi. Əfsanəyə görə, səmanı, yeri, bitki və heyvanları Ra yaratmışdır» [VI sinif «Ümumi tarix» dərsliyi, 2017. s.22]. X sinif «Ədəbiyyat» dərsliyinə nəzər salaq: «Yaradılış» dastanında qədim türklərin əvvəllər kainatın mənzərəsinin necə olması barədəki təsəvvürləri əksini tapıb. Əsərdə Tanrı Qara xan obrazı yaradılıb. Dünya Tanrının iradəsinə tabedir. Dünyada xeyirxahlıqla yanaşı, bədxahlıq da mövcuddur. Tanrı bədxahlığın xeyirxahlığı üstələməsinə, dünyanı idarə etməsinə imkan vermir. Göyün yeddinci qatında oturub kainatı idarə edən Tanrı türklərin yaşadığı torpağın da, cəmiyyətin də taleyini müəyyənləşdirir» [X sinif «Ədəbiyyat» dərsliyi, 2018. s.20]. Eyni tipli məlumatlar X sinif «Ümumi tarix» dərsliyində də əks olunmuşdur [X sinif «Ümumi tarix» dərsliyi, 2017. s.36].

Qeyd olunanlardan belə nəticə çıxır ki, şagird dünya xalqlarının mədəniyyəti və ədəbiyyatı haqqında məlumat alır, bu məlumatlar həmin dövrə aid tarixi mövzuları mənimsəməyə kömək olur. Yuxarı siniflərdə də bu məlumatlar ardıcıl olaraq davam etdirilir. Şagird dünya ədəbiyyatının tanınmış simalarının adını eşidir, müxtəlif xalqların ədəbiyyatları barədə qısa da olsa, məlumatlanırlar. Həmin məlumatlar şagirdin dünyagörüşünün formalaşması üçün ciddi materiallar hesab edilə bilər. Odur ki, «Ədəbiyyat» fənnində də müxtəlif xarici ölkə xalqlarının ədəbiyyatı ilə bağlı nümunələri tədrisə daxil etmək, müqayisələr aparmaq zərurəti meydana gəlir. «Ədəbiyyatdan müxtəlif məşğələlərdə Azərbaycan ədəbiyyatının, eləcə də dünya xalqlarının ədəbiyyatından seçilmiş nümunələrin müzakirəsi şagirdlərin müasir dövrdə xüsusi aktuallıq kəsb edən mənəvi-estetik problemləri, həyatda, cəmiyyətdə baş verən dəyişiklikləri dərk edib qiymətləndirmələrinə, milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnmələrinə imkan yaradır» [Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Ədəbiyyat fənni üzrə təhsil proqramı [kurikulumu] [V-XI siniflər]].

Maraqlı tərəf odur ki, əslində orta məktəb «Ədəbiyyat» dərsliklərini yazarkən müəlliflər ara-sıra dünya ədəbiyyatı ilə müqayisələr etmək istəyiblər. Fikir verin, X sinif «Ədəbiyyat» dərsliyində qeyd edilir ki, «Qədim yunan əsatirlərinin birində istedadlı müğənni Orfeyin oxuduğu gözəl nəğmələr Yer üzündə nə varsa, hamısını heyran edir; külək yatır, dəniz sakitləşir, vəhşi heyvanlar musiqinin təsiri altına düşür, donub qalırlar... Ən qədim zamanlardan bu günədək musiqinin insana möcüzəli, ecazkar təsiri etiraf edilir» [X sinif « Ədəbiyyat» dərsliyi, 2018. s.160].

Bundan əlavə, həmin dərsliyin Qədim dövr ədəbiyyatından bəhs edən icmal hissəsində Azərbaycan ədəbiyyatının formalaşması ümumtürk kontekstində izah edilir: «Qədim dövrlərdə geniş coğrafi ərazidə yayılmış türk xalqlarının ədəbiyyatı ortaq səciyyə daşımış, Azərbaycan ədəbiyyatı ümumtürk ədəbiyyatının tərkib hissəsi kimi yaranmışdır. Qədim dövrlərə getdikcə türk ədəbiyyatları arasında dil, üslub, obraz baxımından ümumiliyin, əlaqənin daha güclü olduğunu görmək olur. Qədim türk bədii düşüncə nümunələrini bizə ilk tanıdan Çin qaynaqlarıdır. Çin dilinə tərcümə olunmuş, eradan əvvəl II əsrə aid nümunələr – şeir parçaları ideya məzmununa görə bugünkü türkü düşündürür, onda həzin, hüznlü ovqatın yaranmasına səbəb olur. Bu parçalarda ifadə olunmuş hiss-düşüncə min il sonra Orxon-Yenisey abidələrində təkrar olunur, türkün öz dilindən eşidilir, türkün öz əlifbasında, yazısında oxunur» [X sinif «Ədəbiyyat» dərsliyi, 2018. s.19].

Müəlliflər şagirdlərdə haqlı olaraq Azərbaycan ədəbiyyatının genezisi haqqında dolğun informasiya, məlumat yaratmaq məqsədi ilə fikirlərini ardıcıl olaraq davam etdirirlər: «Qədim türklərin ortaq ədəbiyyatının əsasında duran epos yaradıcılığı «Dünyanın yaranması», «Türklərin törəyişi», «Oğuz xaqan», «Alp Ər Tonqa», «Ərgənəkon», «Köç» onların tarixini, qəhrəmanlığını əks etdirən qiymətli bədii nümunələrdir. Ortaq məkanda, coğrafiyada, mənəvi mühitdə yaradılmış bu əsərlərdə ulu babalarımızın təfəkkürü, dünyaya, həyata baxışı, mədəni ənənələri bədii ifadəsini tapmışdır. Bizə çatan nümunələrdən məlum olur ki, onlar məzmunca fərqli, rəngarəng olmuşdur.

Eyni məntiq və təhlil sistemini müqayisəli şəkildə müxtəlif ədəbi dövrlərin təhlilində də müşahidə edirik. Məsələn, «Azərbaycan türklərinin qədim qəhrəmanlıq salnaməsi, bədii söz sənətimizin ilk mükəmməl ədəbi-bədii hadisəsi olan «Kitabi-Dədə Qorqud» islamiyyətdən çox-çox öncəki «Oğuznamələr» silsiləsinə daxil olsa da, ana dilimizin abidəsidir. Onun yazıya alınması yazılı ədəbiyyatımızın yalnız ərəb, yaxud fars dilində deyil, həm də doğma dilimizdə inkişaf etdiyini göstərirdi» [X sinif «Ədəbiyyat» dərsliyi, 2018. s. 20].

Azərbaycan təhsili hazırda yeni məzmun keyfiyyətləri qazanaraq inkişaf etmiş ölkələrin mütərəqqi təhsil nailiyyətlərinin təsdiq olunmuş təcrübəsindən bəhrələnərək yeni quruculuq və inkişaf dövrünü yaşayır. Həyata keçirilən islahatların məntiqində və amalında məhz milli və bəşəri dəyərlərə əsaslanan təhsil siyasəti dayanır. Şagirdin vətənə, millətə, torpağa bağlılığı, intellektual səviyyəsinin inkişaf etməsi, koqnitiv-idraki və kommunikativ-ünsiyyət bacarıqlarının daha nizamlı və sistemli formalaşması ədəbiyyat nümunələrindən hansı forma və məzmunda bəhrələnməsindən aslıdır. Bəşəri dəyərlərin və nümunələrin əsas qaynağı olan xarici ölkə xalqlarının ədəbiyyat nümunələrinin, tədrisdə istifadə edilməsi tədrisin keyfiyyətinin artırılmasına ciddi təsir edir. Şagird həm milli ədəbi nümunələrlə tanış olur, onları qavrayır, həmin yazıçının, folklor nümunəsinin təqdim etdiyi məntiqi yükü, paralel olaraq dünya ədəbiyyatı nümunəsinin həmin məzmununu mənimsəyir, daha əhatəli və dərin bilik, bacarıq əldə edir.

«Kitabi-Dədə Qorqud» dastanları ilə Homerin «Odisseya»sı, «İliada»sı,

«Koroğlu» dastanı ilə qədim Hind dastanları, Nizami Gəncəvi ilə U.Şekspir, yunan mifologiyası – Azərbaycan əsatir sistemi, Yunan Allahlar panteonu ilə «Avesta», XII əsr Azərbaycan intibahı ilə Avropa intibahı, XIX əsr M.F.Axundzadə yaradıcılığı ilə fransız ədəbiyyatında Molyer, C.Məmmədquluzadə, Ə.Haqverdiyev yaradıcılığı ilə O.Henri, Mark Tven yaradıcılığı, Anar, Elçin yaradıcılığı ilə U.Folkner, E.Heminquey, Q.Q.Markes yaradıcılığı ilə müasir Azərbaycan ədəbiyyatının əsas nümunələrinin qarşılıqlı müqayisə şəklində məktəb ədəbiyyat kursunun verdiyi imkanlar çərçivəsində təhlil və tədris edilməsi Azərbaycan məktəbinə ancaq qazandıra bilər. Lakin, bir məqamı qeyd etməliyik ki, ədəbi nümunələrə müəyyən qədər həssaslıqla yanaşılmalıdır. Şagirdin və yerli psixologiyanın xüsusiyyətləri nəzərə alınmalıdır.

«Ədəbiyyat kursu şagird şəxsiyyətinin, onun mənəvi aləminin, estetik zövqünün formalaşdırılmasında böyük imkanlara malikdir. Məktəblilər bədii əsərdə əks olunmuş mürəkkəb hadisələri, həyati reallıqları dərk edib qiymətləndirməklə fəal həyat mövqeyinə yiyələnir. Bu mənada ədəbiyyat dərslərinə həyat və mənəviyyat dərsləri, idrak fəaliyyətinin bir növü kimi yanaşılmalıdır. Bədii ədəbiyyat mənəvi ünsiyyətin xüsusi formasıdır. Kamil sənət nümunəsini oxuyan, orada qaldırılan mənəvi-estetik problemlər barədə düşünən, qəhrəmanların taleyinə, sənətkar mövqeyinə münasibət bildirən şagird-oxucu qüdrətli sənətkarın müsahibinə çevrilir, onun fikir və düşüncələrini öyrənməklə mənən zənginləşir. Bu prosesdə məktəblilərin öz fəaliyyətini, hərəkət və davranışını mənəvi, estetik normalar baxımından qiymətləndirilməsi də mümkün olur» [Qarabağlı Ə. 1968, s. 44]. Bu mənada şagirdlərə milli bədii nümunələrlə yanaşı, əcnəbi müəlliflərin seçilmiş və dünya əhəmiyyətli əsərlərinin təqdim edilməsinin xüsusi əhəmiyyəti vardır. «Cəmiyyətin, elmin, mədəniyyətin inkişafının hər mərhələsində dəyişən şəraitə uyğun olaraq gənc nəslin təlimi, tərbiyəsi qarşısında yeni vəzifələr qoyulur. Həmin vəzifələr təlim-tərbiyə prosesinin əsas təşkili forması olan dərsin nəzəri mərhələlərində, təşkilində, metodikasına verilən tələblərdə də öz əksini tapır. Bu, təbii, qarşısıalınmaz prosesdir. Cəmiyyətin dəyişən, artan tələbatına uyğun olaraq təhsil sistemi də daim müasirləşməli, yeniləşməlidir [Həsənli B. 2016, s. 50].

İngilis filosofu, riyaziyyatçısı, ictimai xadimi, 1950-ci ildə ədəbiyyat üzrə Nobel mükafatı qazanmış Russel Bertrand «Təhsilin iki məqsədi olmalıdır: bir tərəfdən zəkanı yetişdirmək, digər tərəfdən vətəndaş yetişdirmək» sözlərini yazır [Bertrand R. 1962] və bu özündə bir çox zəruri mətləbləri əks etdirir.

Azərbaycan filoloji və humanitar elmlərinin tarixinə nəzər salsaq görərik ki, ziyalılar həmişə xalqın, şagirdlərin inkişafı, tərəqqisi, maariflənməsi məqsədilə milli ədəbi nümunələrlə yanaşı, xarici ölkə xalqlarının ədəbiyyatından nümunələrin dilimizə tərcüməsinə böyük əhəmiyyət vermişlər. Təsadüfi deyil ki, Azərbaycan elmində xüsusi yeri olan «Füyuzat» məcmuəsinin ilk nömrəsində Hötenin «Faust» əsərindən bir hissənin doktor Əli Hüseyn tərəfindən tərcüməsi verilib.

Bu onun göstəricisidir ki, xarici ölkə xalqlarının ədəbiyyat nümunələrinin dərsliklərdə yer alması vacibdir, əhəmiyyətlidir.

Azərbaycan ədəbiyyatının əsas ideya və mövzularının dünyanın bir çox ölkələrində də yayıldığı, bunun həm tipoloji, həm də qarşılıqlı bəhrələnmə olması barədə bir çox elmi araşdırmalar aparılmışdır. «Müasir dövrdə ümumdünya tarixi prosesini səciyyələndirən başlıca cəhət qloballaşmadır. Dünya ölkələri və xalqları arasında yaxınlaşma cəhdi istər ictimai-siyasi, istərsə də iqtisadi və mədəni sahələrdə inteqrasiyanı sürətləndirərək elə bir həddə çatdırılıb ki, bu da planetin taleyi üçün məsuliyyətlə bərabər, həm də planetar təfəkkürün formalaşmasına gətirib çıxarıb» [Babayev M. 2009, s. 7].

Bir məqalə ilə dünya ədəbiyyatının orta məktəblərdə tədrisinin əhəmiyyətini əhatəli şəkildə göstərmək mümkün olmasa da, düşünürük ki, növbəti illərdə ədəbiyyat fənn kurikulumları hazırlanarkən və dərsliklər yazılarkən bu məqamlara xüsusi fikir veriləcək.

### İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan məktəbi, 2013, №5.
2. Azərbaycan Respublikasının Konstitusiyası (1995). Bakı.
3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Ədəbiyyat fənni üzrə təhsil proqramı [kurikulumu] [V-XI siniflər].
4. Babayev M. (2009). Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə. Bakı, ADU.
5. Bertrand R. (1962). Bilimdən beklediklerimiz. İstanbul.
6. Əhmədov H., Zeynalova N. (2016). Pedaqogika, Bakı, Elm və Təhsil.
7. Əsədov A. (2017). ABŞ-Azərbaycan ədəbi əlaqələri: yeni nəşr. Bakı, Xan nəşriyyatı.
8. Həsənli B. (2016). Ədəbiyyatın tədrisi metodikası. Bakı, Müəllim.
9. Həsənova G. (2013). Bədii tərcümə və Azərbaycan-ABŞ ədəbi əlaqələri. Bakı, Qartal.
10. Qarabağlı Ə. (1968). Ədəbiyyatın tədrisi metodikası. Bakı, Maarif.
11. Özbek Y. (2014). Bencillik Ne Güzel Şey. 1. Baskı, Çizgi Kitabevi, İstanbul.
12. Paşayev Ə.X., Rüstəmov F.A. (2010). Pedaqogika, Bakı, Elm və Təhsil.
13. http://azertag.az/xeber/Bakida_Gencler_siyaseti_uzre_ birinci_qlobal_forumun_resmi_achilisi_olubAzerbaycan_Prezidenti_Ilham_Aliyev_achilis_merasiminde_istirak _edib.
14. Rostenkowski D. (1981). Economic Recovery Tax Act of 1981. U.S.C.
15. Rüstəmli A. (2011). Mütərcim. Cəfər Cabbarlı. Bakı, «Ozan».
16. Süleymanova A. (2014). Təhsilin əsasları. Bakı, «Təhsil».
17. Süleymanova A. (2011). Fənn kurikulumlarında məzmun standartı. Kurikulum İslahatı: tədqiqatlar, nəticələr. Bakı, «Mütərcim».
18. Ümumtəhsil məktəbləri üçün «Ədəbiyyat» dərsliyi X sinif, Bakı, 2018.
19. Ümumtəhsil məktəbləri üçün «Ümumi tarix» dərsliyi VI sinif, Bakı, 2017.
20. Valehov C. (2015). Milli təhsil müasir transformasiyalar prosesində [sosial-fəlsəfi təhlil]. Bakı, Təhsil.
21. Yusifov F. (2017). Ədəbiyyatın tədrisi metodikası. Bakı, 304 s.
22. Найн А.Я. (1995). Инновации в оброзования. Челябинск.